**UOT 32**

# QAÇQINLARIN BEYNƏLXALQ MÜDAFİƏSİNİN MƏZMUNU VƏ SİYASİ ASPEKTLƏRİ

**Kəmalə NƏSİROVA**[*]

Məqalə redaksiyaya daxil olmuşdur: 19 iyul 2023; çapa qəbul edilmişdir: 20 avqust 2023; online-da çap edilmişdir: 27 sentyabr 2023.

Received: 19th of July, 2023; accepted: 20th of August, 2023; published online: 27th of September, 2023.

**Açar sözlər:** *qaçqın, qaçqınların siyasi problemləri, məcburi köçkün, qaçqınların beynəlxalq müdafiəsi*

## Giriş

Beynəlxalq münasibətlər sistemində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmununun aydınlaşdırılması və problemin siyasi aspektlərinin hərtərəfli təhlili mühüm nəzəri və konseptual əhəmiyyət kəsb edir. Biz bu elmi məqalədə qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu və siyasi aspektlərini müasir beynəlxalq münasibətlərin reallıqları prizmasından araşdıracağıq.

## Qaçqınlar və siyasi konfliktlər

Qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsini şərtləndirən amillər məhz siyasi səbəblər və təhdidlər, habelə beynəlxalq siyasi-hərbi təhlükəsizlik məsələləridir. Bu təhdid və səbəblər isə son illər planetdə qlobal miqyaslı, xüsusilə, Yaxın Şərqdə və dünyanın bir sıra digər konfliktogen zonalarında qaçqın sayını xeyli artırmışdır. Bununla əlaqədar qaçqın problemlərinin tədqiqatçısı, prof. Gil Loesçer yazır ki, davamlı siyasi və diplomatik təşəbbüslər, inkişafa yardım, insan haqlarının monitorinqi və demokratik institutların qurulması, vətəndaş cəmiyyətinin gücləndirilməsi yolu ilə görülən bütün tədbirlərə vaxtında başlanılsa və kifayət qədər iqtisadi və siyasi dəstək verilərsə, bunlar zorakılığın baş verməsi və əhalinin kütləvi yerdəyişməsinin qarşısını almağa kömək edər [7, s. 32]. Müəllifin bu fikirlərinə şərik çıxaraq vurğulamaq lazımdır ki, bir çox hallarda beynəlxalq sistemdə mövcud olan müxtəlif siyasi-hərbi gərginlik və böhran situasiyaları səbəbindən qaçqınların sayı kütləvi şəkildə artmış, qaçqın probleminin mərkəzində qlobal siyasi faktorlar dayanmışdır. Son illərin praktikasından çıxış edərək, təkcə bir faktı vurğulamaq kifayətdir ki, Ermənistanın Azərbaycana hərbi təcavüzü nəticəsində 1 milyondan artıq qaçqın və məcburi köçkün faktoru məhz siyasi və hərbi, eyni zamanda beynəlxalq təhlükəsizlik prizmasından problemin məzmununu obyektiv qiymətləndirməyə imkan verir. Qaçqın probleminin siyasi elementlərini beynəlxalq münasibətlər sistemindəki dəyişikliklərlə, siyasi böhranlarla bağlılığını xarakterizə edən prof. Musa Qasımlı yazır ki, beynəlxalq siyasi şəraitdən yararlanmaqla, 1990-cı illərin beynəlxalq münasibətlərində baş verən "Körfəz" müharibəsi kontekstində sovet rəhbərliyinin diqqətini bu müharibə ilə bağlı diplomatik səylərə yönəltməsi Ermənistanın işinə yaradı və Azərbaycana kütləvi qaçqın axını başladı. 1990-cı ilin sentyabrında Azərbaycanda Ermənistandan qovulan 201 min azərbaycanlı, 2,5 min kürd, 1,5 minə qədər rus süni

[*] *doktorant, Bakı Slavyan Universiteti*
*e-mail:* kamale_revan@mail.ru

surətdə törədilmiş münaqişə zəminində Özbəkistandan qovulan 29 min Ahıska türkü var idi. Az sonra Azərbaycanda qaçqınların sayı 250 min nəfərə çatdı [1, s. 448]. Həmçinin, tamamilə siyasi səbəblərdən 1994-cü ildə Ruandadan Zairə qaçqınlarının faciəli şəkildə çıxması zamanı qaçqın kimi tanınanların ümumi sayı cəmi bir həftə içində 1,2 milyon nəfərə yüksəlmişdir. Məhz bu və ya digər faktlar son dövrlərin beynəlxalq münasibətlər sistemində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmununu şərtləndirən əsas tendensiyalardan biri kimi çıxış etməkdədir. Eyni zamanda, siyasi amillər qaçqın və məcburi köçkün probleminin başlıca səbəbi və həm də müəyyən hallarda nəticəsi kimi çıxış etməkdədir.

Qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu və siyasi aspektlərinin müxtəlif elementlərini şərh edən prof. Edvard Neyman hesab edir ki, tarixi, texnoloji və sosial-iqtisadi dəyişikliklər cəmiyyətlərə bir çox cəhətdən təsir etmiş, münaqişələrin xarakteri və təsiri buna uyğun olaraq dəyişmiş, müharibədən sonrakı dövrdə, məsələn, bir sıra tarixi qüvvələr və proseslər həm leqal, həm də qeyri-leqal formada qaçqın, yerdəyişmə və miqrasiya meyillərinə və qanunlarına təsir göstərmişdir. İkinci dünya müharibəsi Avropada təxminən 40 milyon insanı vətənlərinin hüdudlarından kənarda buraxdı. Dekolonizasiya və müstəqillik uğrunda aparılan müharibələr, dövlətlərin parçalanması, qloballaşma, soyuq müharibənin sonu və şəxsiyyət siyasətinin "dirçəlişi" bütün bunlara təsir etmişdir [8, s. 13]. Alimin bu fikrindən belə nəticəyə gəlmək mümkündür ki, ümumiyyətlə qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu şəxsiyyətin hüquqi statusu, zaman və məkan, habelə insanın mənəvi dəyəri ilə sıx bağlıdırsa, bu problemin siyasi aspektləri isə daha çox müharibə, epidemiyalar, iqtisadi və siyasi kataklizmlərin nəticəsi kimi çıxış edir. Biz beynəlxalq münasibətlər sisteminin bugünkü mənzərəsinə nəzər yetirdikdə qaçqın və məcburi köçkünlər, əhalinin yerdəyişməyə məcbur olan təbəqəsi və ümumiyyətlə miqrasiya proseslərinin məzmunu ilə bağlı yeni tendensiyaların da şahidi oluruq. BMT Baş Assambleyasının 19 sentyabr 2016-cı il tarixli qətnaməsi ilə qəbul olunmuş Qaçqınlar və miqrantlarla bağlı Nyu-York Bəyannaməsində də qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu və siyasi aspektləri ilə bağlı qeyd olunur ki, qaçqınların və miqrantların böyük hərəkəti, bütün sərhədləri aşan siyasi, iqtisadi, sosial, inkişaf, humanitar və insan hüquqları ilə əlaqəli nəticələrə malikdir. Bunlar qlobal yanaşmalara və qlobal həll yollarına çağırış edən qlobal fenomenlərdir. Heç bir dövlət bu hərəkəti təkbaşına idarə edə bilməz [9]. Bu sənəddən də göründüyü kimi, qaçqınların müdafiəsi ilə bağlı məsələnin həlli yalnız beynəlxalq münasibətlər sisteminin rasional harmoniyasından, siyasi, sosial və iqtisadi əlaqələrin inkişafından, habelə ölkələrə və icmalara kömək etmək üçün daha böyük beynəlxalq əməkdaşlıqdan asılıdır.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, qaçqın və məcburi köçkün probleminin siyasi kökləri beynəlxalq münasibətlər sistemində gərginləşən situasiyalar və siyasi konfliktlərlə birbaşa bağlıdır. Burada təbii ki, beynəlxalq qurumlar öz missiyasını lazımi şəkildə yerinə yetirmədikdə, problemin həlli qeyri-mümkün olacaqdır. Bununla əlaqədar, prof. Gil Loesçer qeyd edir ki, Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığı (UNHCR) kimi beynəlxalq humanitar qurumlar siyasi situasiyaların təcavüzkar münaqişələrə çevrilməsinin qarşısını almaq üçün "yumşaq müdaxilə" konsepsiyasını təbliğ edirlər. Bununla belə, silahlı hərbi əməliyyatlar artıq bir ölkə daxilində baş verdiyi və insan hüquqlarının geniş şəkildə pozulması ilə müşayiət olunduğu təqdirdə, bu cür pozuntuları dayandırmaq üçün "sərt" müdaxilə formaları, o cümlədən hərbi əməliyyatlar lazım ola bilər [7, s. 32]. Professorun bu fikrinə tam şərik olaraq, qeyd etmək istərdik ki, beynəlxalq siyasi şəraitdən və bütün dünyanın pandemiya ilə mübarizə aparmasından sui-istifadə edərək, 12 iyul 2020-ci ildə Azərbaycanın Tovuz rayonuna Ermənistan tərəfindən silahlı təcavüz edilməsinə və ondan sonra dəfələrlə ölkəmizə qarşı

təcavüz və təxribat hərəkətlərinə cavab olaraq, ölkəmizdə yeni qaçqın kütləsinin yaranmaması üçün real siyasi və hərbi situasiya "yumşaq müdaxilə"ni deyil, "sərt" müdaxilə formasını - hərbi əməliyyatları zəruri etmiş və Azərbaycan BMT Nizamnaməsinə müvafiq olaraq, Ermənistana qarşı özünümüdafiə xarakterli əks-hücum əməliyyatları həyata keçirmişdir.

Prof. Qudvin Qill vurğulayır ki, qaçqın probleminin hər zaman tamamilə qeyri-siyasi ola biləcəyini təsəvvür etmək qeyri-realdır. Onun fikrincə, 1920-1955-ci illər tarixinin də təsdiqlədiyi kimi, dövlətlərin qaçqın axınlarına reaksiyalarında motivasiya amili onların öz maraqlarının davamlı olması idi. Lakin,1940-cı illərin sonu və 1950-ci illərin əvvəllərində qaçqınlara dair bir təqib yönümlü tərifin müəyyənləşdirilməsi ilə təkcə beynəlxalq səviyyədə deyil, həm də milli sığınacaq prosedurlarını tənzimləyən beynəlxalq qaçqın rejimini formalaşdırdı [6, s.12].

Baxmayaraq ki, 1950-ci ilin dekabrında BMT Baş Assambleyasının qərarı ilə yaradılmış BMT Qaçqınlar üzrə Ali Komissarlığının Ofisi (UNHCR) mahiyyəti qeyri-siyasi xarakterli bir qurum kimi formalaşmış və humanitar təşkilat kimi yaradılmışdısa, bu gün artıq bu qurum bir sıra qaçqınları məhz siyasi baxışlarına və ya siyasi əqidəsinə görə dövlətlərin təqibindən qorumaq missiyasını yerinə yetirir. Onun vəzifəsi qaçqınların beynəlxalq müdafiəsini təmin etmək və qaçqın probleminin davamlı həllinə nail olmaqla bu məqsədlərə çatmaqda kömək etməkdir. Əlbəttə, həm də yaddan çıxarmaq olmaz ki, bu qurum hazırda öz vəzifəsini hökumətlərlə siyasi əməkdaşlıq yolu ilə həyata keçirir. Bundan başqa, BMT strukturlarında qaçqınlarla qəbul olunan qərarlar məhz siyasi səbəblərlə əlaqədar olmuşdur. Məsələn, buna bariz nümunə kimi Azərbaycan qaçqınlarına beynəlxalq yardımın göstərilməsi ilə bağlı qərarından da görmək mümkündür. Məhz beynəlxalq siyasi şəraitin, o cümlədən Azərbaycanda pisləşən humanitar vəziyyətin və 1 milyondan çox qaçqın və məcburi köçkünün yaranmasından dərin narahatlığını ifadə edən BMT Baş Assambleyası 1993-cü ildə 85-ci plenar iclasında Azərbaycanda qaçqın və məcburi köçkünlərə fövqəladə beynəlxalq yardımın göstərilməsi haqqında A/RES/48/114 saylı Qətnamə qəbul etmişdir [2].

İstər əvvəlki dövrlərin, istərsə də müasir dövrün beynəlxalq münasibətlər sistemində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu və siyasi baxımdan qaçqınların vəziyyəti və institusional idarəetmə ilə bağlı normaların kodifikasiyası da mühüm elmi-praktiki mahiyyət kəsb edən məsələlərdən biri hesab edilir.

A.İ.Qercen adına Rusiya Dövlət Pedaqoji Universitetinin professoru N.Y.İvanovna bununla əlaqədar qeyd edir ki, qaçqınların hüquqları sahəsində kodifikasiya prosesi beynəlxalq səviyyədə insan hüquqlarının tənzimlənməsindən daha əvvəl başlamışdır. Hesab edilir ki, qaçqınların hüquqlarının müdafiəsi institutunun formalaşması beynəlxalq münasibətlərin inkişafı ilə bilavasitə əlaqəlidir [4, s. 75]. Bu fikirlərin təhlilindən də açıq-aydın görünür ki, insan hüquqları tarixən XIX-XX əsrlərin məhsulu olmuşdursa, qaçqınların beynəlxalq müdafiəsinin siyasi aspektləri də əvvəlki dövrlərə aid olmaqla, daha çox beynəlxalq münasibətlərdə geniş mənada siyasi, həmçinin, sosial-iqtisadi və demoqrafik proseslərin nəticəsində formalaşmışdır. Bununla əlaqədar, qaçqın probleminin sosial-iqtisadi və etnik səbəblərinə toxunan siyasi analitik Z.Bjezinski yazır: "Aydındır ki, qlobal miqyasda artan əhali miqrasiyası kimi bir hadisənin yalnız sosial-iqtisadi sahədə "təhlükəsizlik qapağı" kimi deyil, həm də "etnik və sosial konfliktlərin qitədən qitəyə köçürülməsi vasitəsi" kimi də xidmət edə bilər" [3, s. 128]. Ona görə də hesab edirik ki, qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmun etibarilə mühüm elementi bu paradiqmaya kompleks yanaşılmasından ibarətdir. Kompleks yanaşma o deməkdir ki, qaçqın probleminin beynəlxalq müdafiəsini zəruri edən amillərə həm siyasi səbəb və maraqlarla yanaşı, həmçinin burada sosial, iqtisadi və demoqrafik faktorlarda aid edilməlidir.

**Beynəlxalq münasibətlərdə "qaçqın" anlayışının məzmunu**

Beynəlxalq münasibətlər sistemində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu və siyasi aspektlərinin təhlili zamanı "qaçqın" və "məcburi köçkün" anlayışlarının müəyyən edilməsi də mühüm elmi-nəzəri əhəmiyyət kəsb edir. Qaçqınların və məcburi köçkünlərin beynəlxalq statusu ilə bağlı yuxarıda geniş şəkildə şərh etdiyimiz XX əsrin əvvəllərində qəbul olunan müqavilələr "qaçqın" anlayışının mənsub olduğu dövlətin müdafiəsindən məhrum olan əcnəbilərin bütöv qruplarına şamil olunması ilə xarakterizə olunur. Hesab edilir ki, "qaçqın" anlayışının məzmununa belə qrup yanaşması XX əsrin ikinci yarısında mövcud olmuş dövlətlərin qaçqınların meydana çıxmasına səbəb olan yeni yaranan situasiyalara birdəfəlik reaksiyası siyasətini əks etdirirdi.

Beynəlxalq münasibətlər sistemində qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmunu, xüsusilə "qaçqın" anlayışının müəyyən edilməsi ilə bağlı yuxarıda qeyd etdiyimiz 1926-cı il mayın 12-də Cenevrədə keçirilmiş konfransda 1922-ci ilin sazişinə bir sıra əlavələr və dəyişikliklər edilmiş, yeni müqavilədə ilk dəfə olaraq "qaçqın" terminінə aydınlıq gətirilmişdir. Eyni zamanda, beynəlxalq münasibətlər sistemində qaçqınların beynəlxalq müdafiəsinin məzmununa "Qaçqınların beynəlxalq statusu" haqqında 1933-cü il konvensiyası mühüm yeniliklər gətirmişdir. Gələcək beynəlxalq aktlar üçün model olan bu konvensiya əvvəlki sazişlərdə təsbit olunmuş məzmun elementlərini özündə birləşdirmiş və qaçqınların hüquqi müdafiəsinin məzmununa şəxsi status, məşğulluq, sosial hüquqlar və təhsil kimi məsələlərə dair yeni müddəalar daxil etmişdir. Lakin qaçqınların beynəlxalq müdafiəsinin məzmununa və siyasi aspektlərinə, o cümlədən "qaçqın" termininin məna yükünə beynəlxalq münasibətlər sistemində ən mükəmməl aydınlığı Qaçqınların statusu haqqında 1951-ci il konvensiyası gətirmişdir. Həmin konvensiyanın 1-ci maddəsində "qaçqın" termininin ümumi məzmunu müəyyənləşdirilir. Həmin məzmuna görə bu termin "1951-ci il yanvarın 1-dək baş verən hadisələr nəticəsində və irqi, dini, vətəndaşlıq əlamətlərinə, müəyyən sosial qrupa mənsubluğuna və ya siyasi əqidəsinə görə təqib olunmasına tamamilə əsaslandırılmış təhlükə yarandığı üçün vətəndaşı olduğu ölkədən kənara çıxan və bu ölkənin müdafiəsindən istifadə edə bilməyən və ya bu təhlükələr səbəbindən belə müdafiədən istifadə etmək istəməyən; və yaxud müəyyən bir ölkənin vətəndaşlığına malik olmayan və belə hadisələr nəticəsində özünün ilkin adi yaşayış yerinin mənsub olduğu ölkədən kənara çıxan, bu cür təhlükələrin qorxusundan ora qayıda bilməyən və ya qayıtmaq istəməyən" hər bir şəxsə şamil edilir. Bu tərifdən də göründüyü kimi, qaçqınların beynəlxalq müdafiəsinin məzmununda ilkin element onun bu və ya digər əsaslarla təqibə məruz qalması ilə bağlıdır. Burada məzmun baxımından ikinci mühüm amil isə, qaçqına qarşı yönələn həmin təqiblərin məhz hansı səbəblərdən yaranması ilə əlaqədardır.

1951-ci il konvensiyasını şərh edən prof. A.Y.Yasterbova qaçqın terminin məzmunu ilə bağlı qeyd edir ki, konvensiyanın mətnindən göründüyü kimi, "qaçqın" ümumi anlayış olaraq aşağıdakı əlamətlərə malikdir: şəxsin öz ölkəsi və ya adi yaşayış yeri hüdudlarından kənarda olması; bu ölkənin müdafiəsindən istifadənin qeyri-mümkünlüyü və arzuolunmazlığı; şəxsin həyatına, azadlıqlarına və təhlükəsizliyinə əsaslandırılmış təhlükə; BMT-nin Qaçqınların işi üzrə Ali Komissar Ofisinin Nizamnaməsindən fərqli olaraq, 1951-ci il konvensiyasında təqibin dörd deyil, beş əlaməti qeyd olunmuşdur. Təqibin irqi, dini, milli və siyasi baxışlar üzrə əlamətləri ilə yanaşı, şəxsin müəyyən sosial qrupa mənsubluğuna görə təqib olunması əlaməti də buraya əlavə edilmişdir; göstərilən səbəblərə görə şəxsin öz ölkəsinə qayıtmasının qeyri-mümkünlüyü nəzərə çatdırılır [5, s. 62].

Şərhlərdən aydın olur ki, burada irqi, dini, vətəndaşlıq, sosial qrupa mənsubluq və siyasi əqidə daşıyıcılığı elementləri məhz, belə təqiblərin əsası kimi çıxış edir. Bu

maddənin mahiyyətindən göründüyü kimi, qaçqınların beynəlxalq müdafiəsinin məzmununda digər element onların məhz öz ölkəsinin müdafiə imkanlarından məhrum olması və daha çox siyasi səbəblərin mövcudluğu ilə bağlıdır. Bu daha çox nəticə elementi kimi çıxış edir. Burada qaçqınların beynəlxalq müdafiəsinə əsas olan faktor da məhz onun öz dövləti tərəfindən təqibə, o cümlədən siyasi təqibə məruz qalması və öz ölkəsinin müdafiəsindən məhrum olması amilidir. Ona görə də, biz tam mənada deyə bilərik ki, bütün dünyada və beynəlxalq münasibətlər sistemində qaçqınların beynəlxalq müdafiəsi zərurətinin əsası və nəticəsi məhz siyasi amillərin ortaya qoyduğu səbəblərlə bağlıdır. Qaçqınların və məcburi köçkünlərin beynəlxalq müdafiəsi də məhz qlobal mənada bu zaman effektivlik və aktuallıq kəsb edir.

**Nəticə**

Beləliklə, qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsinin məzmun etibarilə mühüm elementi bu paradiqmaya kompleks yanaşılmasından ibarətdir. Kompleks yanaşma o deməkdir ki, qaçqın probleminin beynəlxalq müdafiəsini zəruri edən amillərə həm siyasi səbəb və maraqlarla yanaşı, həmçinin burada sosial, iqtisadi və demoqrafik faktorlarda aid edilməlidir. Qaçqın və məcburi köçkünlərin beynəlxalq müdafiəsini şərtləndirən amillər məhz siyasi səbəblər və təhdidlər, habelə beynəlxalq siyasi-hərbi təhlükəsizlik məsələləridir. Bu təhdid və səbəblər isə son illər planetdə qlobal miqyaslı, xüsusilə, Yaxın Şərqdə və dünyanın bir sıra digər konfliktogen zonalarında qaçqın sayını xeyli artırmışdır.

## ƏDƏBİYYAT


1. Qasımlı M.C. Ermənistanın sovetləşdirilməsindən Azərbaycan ərazilərinin işğalınadək erməni iddiaları: tarix – olduğu kimi (1920-1994-cü illər); Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, 2016, 520 s.
2. Азербайджан на международной арене, (http://files.preslib.az/projects/republic/ru/azr2_4.pdf)
3. Бжезинский, З. Великая шахматная доска. Господство Америки и его геостратегические императивы. М.: Международные отношения, 1999, 232 с .
4. Иванова Н. Ю. К вопросу о статусе беженца в международном праве, Исторические, философские, политические и юридические науки, культурология и искусствоведение. Вопросы теории и практики, Тамбов: Грамота, 2009, № 3 (4), 74-76 с.
5. Ястребова А.Ю. Международно-правовые механизмы регулирования миграции: доктринальные подходы и опыт Российской Федерации: монография. - М. ВАКО, 2014, 62 с.
6. Guy S. Goodwin-Gill, The Politics of Refugee Protection. Refugee Survey Quarterly, Volume 27, Issue 1, 2008, p. 8-23.
7. Gil Loescher, Refugees as grounds for international action. Refugees and forced displacement: International security, human vulnerability, and the state. The United Nations University, 2003, p. 32.
8. Refugees and forced displacement: international security, human vulnerability, and the state / Edward Newman and Joanne van Selm, editors. TheUnitedNations University Press, NewYork, 2003, p. 13.
9. Resolution adopted by the General Assembly on 19 September 2016, New York Declaration for Refugees and Migrants (https://www.un.org/en/development/desa/population/migration/generalassembly/docs/globalcompact/A_RES_71_1.pdf)

***Резюме***

***Камала Несирова***

***Содержание и политические аспекты международной защиты беженцев***

В статье рассматриваются содержание и политические аспекты международной защиты беженцев и внутренне перемещенных лиц с позиции реалий современных международных отношений.

Важным элементом международной защиты беженцев и внутренне перемещенных лиц является комплексный подход к этой парадигме. Комплексный подход означает, что факторы, обусловливающие необходимость международной защиты проблемы беженцев, должны включать как политические причины и интересы, так и социальные, экономические и демографические факторы.

В статье рассматривается, что факторами, определяющими международную защиту беженцев и внутренне перемещенных лиц, являются именно политические причины и угрозы, а также вопросы международной военно-политической безопасности. Муса Гасымлы пишет, что в контексте "войны в Персидском заливе", которая произошла в международных отношениях в 1990-х годах, используя международные политические условия, советское руководство обратило свое внимание на дипломатические усилия, связанные с этой войной, и в Азербайджан начался массовый поток беженцев. В сентябре 1990 года в Азербайджане насчитывалось 201 тысяч азербайджанцев, изгнанных из Армении, 2,5 тысячи курдов, до 1,5 тысячи русских, 29 тысяч турок-албанцев, изгнанных из Узбекистана на фоне искусственно созданного конфликта. Вскоре число беженцев в Азербайджане достигло 250 тыс. Человек. Из комментариев становится ясно, что именно здесь в качестве основы таких преследований выступают элементы расы, религии, гражданства, принадлежности к социальной группе и носительства политических убеждений. Как видно из существа данной статьи, другой элемент содержания международной защиты беженцев связан именно с тем, что они лишены оборонных возможностей своей страны и имеют больше политических мотивов. Это больше похоже на элемент результата.Здесь ключевым фактором международной защиты беженцев является именно тот факт, что они подвергаются преследованиям со стороны своего государства, в том числе политическим, и лишаются защиты своей страны.

***Ключевые слова:*** *беженцы, политические проблемы беженцев, внутренне перемещенные лица, международная защита беженцев*

***Summary***

***Kamala Nesirova***

***Content and Political Aspects of İnternational Protection of Refugees***

The article examines the content and political aspects of the international protection of refugees and internally displaced persons from the perspective of the realities of modern international relations.

An important element of the international protection of refugees and internally displaced persons is the comprehensive approach to this paradigm. A comprehensive approach means that the factors necessitating the international protection of the refugee problem should include both political reasons and interests, as well as social, economic and demographic factors.

The article considers that the factors determining the international protection of refugees and internally displaced persons are precisely political reasons and threats, as well as international political-military security issues. It is clear from the article that elements of race, religion, citizenship, belonging to a social group and political convictions act as the basis for such persecution. As can be seen from the essence of this article, another element in the content of international protection of refugees is due precisely to the fact that they are deprived of the defense capabilities of their country and, to a greater extent, the existence of political reasons. This acts more as a result element. Here, the main factor in the international protection of refugees is precisely the factor of its persecution by its state, including political persecution and deprivation of the protection of its country. Therefore, we can say in full grandmother that the basis and result of the need for international protection of refugees all over the world and in the system of international relations is precisely due to the reasons posed by political factors.

***Key words:*** *Refugee, political problems of refugees, internally displaced persons, international protection of refugees*

Redaksiya heyətinin üzvü t.e.d., prof. İsgəndərov Anar Camal oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.